# Elektron ticarət

Dünya İqtisadi Forumunun «Qlobal informasiya texnologiyaları 2010-2011» adlı hesabatında Azərbaycan İKT-nin inkişafına görə 138 ölkə arasında 70-ci yerdə qərarlaşıb. Müqayisə üçün bildirək ki, həmin hesabatda region ölkələrindən Türkiyə 71-ci, Rusiya 77-ci, Ukrayna 90-cı, Gürcüstan 98-ci, İran 101-ci, Ermənistan 109-cu, Tacikistan 112-ci, Qırğızıstan 116-cı yerdədir. Bu hesabatda yalnız Qazaxıstan Azərbaycandan 3 pillə irəlidədir...

*İnkişafın astanasında...*

İKT-nin populyar sahələrindən biri elektron ticarətdir (e-commerce) və bu sahə Azərbaycanda özünün inkişaf dövrünə qədəm qoyub. Müasir dünyada inkişaf etmiş ölkələrdə daha geniş vüsət almış elektron ticarət Azərbaycan vətəndaşı üçün yeni bir sahədir və son 3 ildə 100-dən çox şirkət xidmət və məhsullarını internet üzərindən satışa çıxarmışdır. Dövlət Statistika Komitəsinin verdiyi məlumata əsasən, bu il yanvar ayının yekunları üzrə Azərbaycanda «elektron ticarət» bazarının həcmi 76,1 min manat təşkil etmişdir. Satışların 95,3%-ni hüquqi şəxslər, qalan hissəsini isə fiziki şəxslər həyata keçirmişlər. Elektron ticarət vasitəsilə satılan məhsullardan 98,3% (74,8 min manat dəyərində) qeyri-ərzaq məhsullarının və 1,7% (1,3 min manat) isə ərzaq məhsullarının payına düşüb.

Ölkəmizdə bu sahənin inkişafı üçün imkanlar daha da genişlənməkdədir: elektron hökumət və elektron imza ilə bağlı qanunlar hazırlanmış və dövlət proqramları qəbul edilmişdir. Qeyd edək ki, bu ilin dövlət büdcəsindən «Elektron Azərbaycan» dövlət proqramının həyata keçirilməsinə 10 milyon manat ayrılmışdır. Vəsait İKT-nin dövlət və özünüidarəetmə orqanlarında geniş tətbiqinin təmin edilməsinə, rəsmi internet-resursların təkmilləşdirilməsinə, telekommunikasiya və poçt infrastrukturunun, elektron xidmətlərin inkişafı üçün rəqabətli və ixracyönümlü informasiya-kommunikasiya texnologiyalarının potensialının gücləndirilməsinə yönəldiləcək.

*Elektron ticarətin üstünlükləri və perspektivləri*

İnternet vasitəsilə alış-veriş həm istehlakçılar, həm bu xidmətləri təklif edən şirkətlər, ümumilikdə isə cəmiyyət üçün bir sıra üstünlüklər vəd edir. Belə bir ticarət növü, ilk növbədə, vergidən yayınmanın qarşısını alır, bütün hesablaşmalar qeydə alındığına görə vergidən yayınma halları minimuma enir. Elektron ticarətdən istifadə edən istehlakçılar vaxt və xərc itkisindən qurtulmuş olurlar - internetə çıxışı olan və bu sahədə müəyyən təcrübəyə yiyələnən istənilən şəxs evini tərk etmədən lazım olan malı və ya xidməti əldə edə bilir ki, bunun üçün də əlavə vaxt və maliyyə sərf etmir. Elektron ticarətin sifarişçi tələblərinin formalaşmasına radikal təsir edə bilmək imkanı var və bu, yeni tipli bazarların formalaşmasına səbəb olur. Bu sektorun daha bir perspektivli aspekti yarada bildiyi və biləcəyi yeni iş yerləridir. Sistem tam qüvvə ilə işə düşdükdən sonra bir sıra fəaliyyət sahələri - dizaynerlər, veb-proqramçılar, sistem administratorları və s. kimi müxtəlif profillər üzrə çoxlu mütəxəssislərə ehtiyac duyulacaq...

Bununla belə, Azərbaycanda elektron ticarətin dövriyyəsi, statistikadan aydın göründüyü kimi, hələlik cüzidir. Mütəxəssislərin rəyinə görə, bu sektorun canlanması üçün, ilk növbədə, əhali arasında geniş təbliğat işinin aparılmasına ehtiyac var. İnsanlarda internet üzərindən aparılan alış-verişə inam aşılanmalıdır. Vətəndaş internet vasitəsilə ödəniş edib hər hansı malı və ya xidməti aldıqda əmin olmalıdır ki, onun ödədiyi məbləğ ünvanına yetişəcək, istədiyi əşya və ya ərzaq ona vaxtında və keyfiyyətlə çatdırılacaq.

Ölkədə elektron ticarətin inkişafını ləngidən amillərdən biri əhalinin nağdsız ödəniş sistemindən istifadə təcrübəsinin azlığıdır. Bu sahədə özünü büruzə verən daha bir problem də internet vasitəsilə satılan mallara verilən zəmanətlə bağlıdır. Azərbaycanda internet vasitəsilə alınan mal sonradan keyfiyyətsiz çıxdıqda və ya müştəri fikrini dəyişdikdə həmin malın geri qaytarılması mexanizmi hələlik mövcud deyil. Bu xidmətlə məşğul olan mağazaların çoxu öz xidmətlərini virtual təqdim etdiklərinə görə, onların dəqiq yerləşmə ünvanları yoxdur...

Bütün bunlara baxmayaraq, elektron ticarət artıq yaşadığımız dövrün qaçılmaz bir reallığıdır.

Arzu İBRAHİMOVA